Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin ____________ 2023-cü il tarixli _____ nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında**
**Əmlak Məsələləri Dövlət Xidmətinin**
**Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Xidmət) struktur bölməsi olan Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində torpaqların dövlət idarəetməsi, torpaq bazarının təşkili və xüsusi (sahəvi) təyinatlı geodeziya fəaliyyəti sahələrində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni və Xidmətin Əsasnaməsini, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) və Xidmət rəisinin əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Xidmətin struktur bölmələri və tabeliyindəki qurumları (bundan sonra – Xidmətin strukturları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. torpaqların dövlət idarəetməsini təşkil edir;

2.0.2. torpaq münasibətlərinin tənzimlənməsi, xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin aparılması, yerquruluşu, dövlət torpaq kadastrı və torpaqların monitorinqi işlərini təşkil edir və bu sahəyə nəzarət edir;

2.0.3. torpaq bazarının təşkilini təmin edir;

2.0.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Şöbənin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərindən irəli gələn aşağıdakı vəzifələri vardır:

3.0.1. torpaqların dövlət idarəetməsinin təşkili istiqamətində həyata keçirilən işləri əlaqələndirmək və görülmüş işlər barədə məlumatların toplanılmasını və ümumiləşdirilməsini təmin etmək;

3.0.2. dövlət mülkiyyətində olan torpaq sahələrinin idarə edilməsi, özəlləşdirilməsi və bu sahəyə investisiyaların cəlb olunması sahəsində dövlət siyasətinin həyata keçirilməsinə dair təkliflər vermək;

3.0.3. torpaqların idarə edilməsi sahəsində dövlət proqramlarının layihələrinin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

3.0.4. torpaq sahələrinin normativ qiymətlərinin və dövlət torpaqlarının icarə haqlarının müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.5. torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi barədə vəsatətlərə baxmaq, əsaslandırılması istiqamətində tədbirlər görmək və təkliflər vermək;

3.0.6. bələdiyyə mülkiyyətinə torpaq verilməsi ilə bağlı sənədlərin ekspertiza edilməsində iştirak etmək;

3.0.7. bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq mülkiyyətə, istifadəyə, icarəyə verilməsinə dair rəy hazırlanmasını təşkil etmək;

3.0.8. dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsinə dair işlərin təşkilində iştirak etmək;

3.0.9. icarəyə və istifadəyə verilən dövlət müəssisə, idarə və təşkilatların istifadəsində olan, dövlət mülkiyyətində olan obyektlərin yerləşdiyi və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaqları istisna olmaqla, digər dövlət torpaqlarının icarəyə və istifadəyə verilməsinə rəy hazırlamaq;

3.0.10.“Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinə razılıq vermək;

3.0.11. aşkar edilən istifadəsiz qalmış və səmərəsiz istifadə olunan torpaq sahələrindən səmərəli istifadə olunması məqsədilə təkliflər vermək;

3.0.12. torpaqların dövlət idarəetməsinin təşkili ilə bağlı icra hakimiyyəti orqanlarının, dövlət müəssisə və təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;

3.0.13. torpaqların idarə olunmasına dövlət nəzarətinin həyata keçirilməsi işlərinin maliyyələşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.14. torpaq bazarını təşkili ilə bağlı tədbirlər görmək və torpaq bazarını tənzimləyən rəsmi məlumatların müntəzəm toplanmasını təmin etmək;

3.0.15. münbitlik xassələrini itirmiş torpaqların müvəqqəti əkin dövriyyəsindən çıxarılmasına (konservasiyasına) dair təkliflər verilməsində, torpaqların münbitliyinin bərpası, artırılması və onların mühafizəsi üzrə investisiya proqramlarının ekspertizasının həyata keçirilməsində, gələcəkdə həmin sahələrin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi barədə təkliflər verilməsində iştirak etmək;

3.0.16. yerquruluşu layihələrinin dövlət ekspertizasının həyata keçirilməsində iştirak etmək;

3.0.17. torpaqların şorlaşma, şorakətləşmə və müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, torpaqların münbitliyinin qorunması layihələrinin aidiyyəti təşkilatlarla birlikdə tərtibində iştirak etmək;

3.0.18. yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi istiqamətində zəruri tədbirlər görmək;

3.0.19. yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin nəticəsində əldə olunan məlumatların və sənədlərin saxlanılması və istifadəsinin təmin olunması ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.20. xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin və onların nəticəsi olan materialların və məlumatların hazırlanmasının və istifadəsinin vahid rejim və normativ-texniki sənədlər əsasında həyata keçirilməsinə nəzarət edilməsində iştirak etmək;

3.0.21. torpaq münasibətlərinin tənzimlənməsi, yerquruluşu, dövlət torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin aparılmasının əlaqələndirilməsini təmin etmək və bu sahəyə nəzarət etmək;

3.0.22. torpaq sahələrinin icarəyə və xüsusi mülkiyyətə verilməsi, torpaq münasibətlərinin tənzimlənməsi, yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin aparılmasını tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

3.0.23. yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilən qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlər görmək;

3.0.24. yerquruluşu işlərinin və dövlət torpaq kadastrının aparılmasının əlaqələndirilməsini təmin etmək;

3.0.25. inzibati ərazi vahidlərinin, bələdiyyələrin xəritələrinin hazırlanmasına nəzarət etmək;

3.0.26. məkan məlumatları infrastrukturunun yaradılması məqsədi ilə həyata keçirilən yerquruluşu, torpaq kadastrı və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin əlaqələndirilməsini təmin etmək;

3.0.27. torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəricilərinin dəqiqləşdirilməsi, torpaq sahələrində baş verən dəyişikliklərin müəyyən edilməsi istiqamətində həyata keçirilən işləri əlaqələndirmək;

3.0.28. rayonlar, rayon və respublika tabeli şəhərlər (o cümlədən Naxçıvan Muxtar Respublikası) üzrə torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə haqqında (hər il 1 yanvar tarixinə olan vəziyyətinə dair) hesabatların (torpaq fondunun növləri, torpaqda baş verən dəyişikliklər, habelə torpaqların mülkiyyətə, istifadəyə və icarəyə verilməsi haqqında məlumatlar daxil edilməklə) kağız və elektron daşıyıcılarda tətrib edilməsinə nəzarət etmək;

3.0.29. kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi, habelə torpağın normativ qiymətinin müəyyənləşdirilməsi, torpaqlardan səmərəli istifadə olunması və onların mühafizəsini təmin edən iqtisadi həvəsləndirmə tədbirlərinə dair təkliflər hazırlanmasında iştirak etmək;

3.0.30. torpaqların zonalaşdırılması işlərinə nəzarət etmək və bu sahədə təkliflər vermək;

3.0.31. torpaq ehtiyatlarından istifadə olunması ilə bağlı proqramlara, yerquruluşu layihələrinə, şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq ərazi və baş planlarına müvafiq rəy verilməsində iştirak etmək;

3.0.32. yerquruluşu və torpaq kadastrı işlərinin aparılması üçün geodeziya istinad şəbəkəsinin yaradılması, kadastr plan və xəritələrinin tərtibatı, yenilənməsi və təminatı işlərinin əlaqələndirilməsi barədə təkliflər vermək;

3.0.33. vahid koordinat və hündürlük sistemində obyekt və sənaye komplekslərinin, şəhər və başqa yaşayış məntəqələrinin ərazisinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçik miqyaslı topoqrafik xəritələrin yenilənməsi və çoxməqsədli topoqrafik planalma işlərinin əlaqələndirilməsi barədə təkliflər vermək;

3.0.34. dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə avtomatlaşdırılmış torpaq kadastr informasiya sistemi və məlumat bankının funksionallığının təmin edilməsi istiqamətində zəruri tədbirlər görmək;

3.0.35. müəyyən edilmiş qaydada razılaşdırılmaqla aerofotoplanaalma işlərinin həyata keçirilməsində və digər təşkilatların həmin məlumatlarla müəyyən olunmuş qaydada təmin edilməsində iştirak etmək;

3.0.36. müasir geodeziya alətlərinin və cihazlarının tətbiqi üçün şərait yaratmaq və tədbirlər görmək;

3.0.37. Xidmətin icraçı olduğu dövlət proqramları, strateji yol xəritələri və digər normativ hüquqi aktlarla müəyyən edilmiş tapşırıqların aidiyyəti üzrə tam həcmdə, vaxtında və keyfiyyətlə icrasını təmin etmək, icraya dair hesabatları (məlumatları) hazırlayıb müəyyən edilmiş qaydada təqdim etmək, bununla bağlı Xidmətdə monitorinq və qiymətləndirmənin aparılması üçün zəruri olan məlumatları vaxtında Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.38. Xidmətin strateji inkişaf, fəaliyyət və tədbirlər planlarının hazırlanmasında iştirak etmək, onların hazırlanması və icrası ilə bağlı aidiyyəti üzrə materialları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.39. öz fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin və iş proseslərinin optimallaşdırılması, habelə elektron xidmətlərə və rəqəmsal idarəetməyə davamlı keçidin təmin edilməsi, innovasiyaların tətbiq edilməsi ilə bağlı mütəmadi təhlillər aparmaq və innovativ inkişafa dair təkliflər hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, təkliflərin qəbulu və icrası ilə bağlı aidiyyəti üzrə tədbirlər görmək;

3.0.40. əsasnaməsi ilə müəyyən edilmiş əsas fəaliyyətlərini müntəzəm təhlil etmək, fəaliyyətinin şəffaflığının və səmərəliliyinin artırılması barədə təkliflər hazırlayıb Xidmət rəisinə təqdim etmək və bu istiqamətdə əməli tədbirlər görmək;

3.0.41. əsas fəaliyyət göstəriciləri üzrə proqnozların və tapşırıqların müəyyən edilməsinə dair təkliflər vermək, onların icrasına dair Xidmətdə analitik məlumat bazasının yaradılması ilə bağlı fəaliyyət istiqamətləri üzrə statistik göstəriciləri hazırlamaq və dövri (aylıq, rüblük, yarımillik və illik) hesabatları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.42. Xidmətdə əsas fəaliyyət göstəriciləri üzrə müəyyən edilmiş proqnozların icrasının monitorinqini və qiymətləndirilməsi, həmçinin müvafiq iqtisadi-statistik, texniki-iqtisadi və analitik təhlillər aparmaq məqsədilə aidiyyəti üzrə zəruri məlumatları, arayışları, cədvəlləri və digər məlumatları hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, müvafiq fəaliyyət sahələrinin perspektiv inkişafı, müasirləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlı təkliflər vermək;

3.0.43. müvafiq sahənin inkişafı ilə bağlı öz fəaliyyət istiqamətləri üzrə dövlət proqramlarının və digər normativ hüquqi aktların layihələrini hazırlamaq və hazırlanmasında iştirak etmək;

3.0.44. fəaliyyət istiqamətləri üzrə rəy verilməsi, təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparılması işlərində iştirak etmək;

3.0.45. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.46. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.47. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. Xidmətin fəaliyyətinə aid və Xidmətin strukturları tərəfindən hazırlanmış normativ hüquqi aktların, beynəlxalq müqavilələrin, təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair rəy vermək və təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr aparmaq;

4.0.2. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Xidmətin strukturlarına müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.0.3. Xidmətdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Xidməti təmsil etmək, onların işində iştirak etmək;

4.0.4. Xidmətin strukturlarında idarəetmənin təkmilləşdirilməsi, səlahiyyətlərin dəqiqləşdirilməsi, fəaliyyətin optimallaşdırılması, habelə müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün təkliflər hazırlamaq;

4.0.5.xidməti zərurətlə əlaqədar Xidmətin strukturlarına, dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarına tələb olunan zəruri məlumatlara (sənədlərə) dair müvafiq qaydada sorğu ünvanlamaq və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.6. torpaqların idarə edilməsi sahəsində dövlət proqramlarının layihələrinin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

4.0.7. xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin və onların nəticəsi olan materialların və məlumatların hazırlanmasının və istifadəsinin vahid rejim və normativ-texniki sənədlər əsasında həyata keçirilməsinə nəzarət edilməsində iştirak etmək;

4.0.8. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı aidiyyəti dövlət orqanlarına göndərilmək üçün təkliflər hazırlayıb rəhbərliyə təqdim etmək;

4.0.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Xidmət rəisinə tabedir və onun qarşısında hesabat verir. Xidmət rəisi tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz. Şöbənin strukturuna Torpaqların idarə edilməsi sektoru, Torpaq bazarının təşkili sektoru və Torpaq münasibətləri, geodeziya və metodiki təminat sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Şöbə müdirinin müavinləri şöbə müdiri tərəfindən onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavinlərindən biri və ya Xidmət rəisi tərəfindən müəyyən edilən digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Sektor müdirləri müəyyən edilmiş istiqamətlər üzrə sektorların qarşısında qoyulmuş vəzifələrin icrasına görə məsuliyyət daşıyırlar.

5.6. Şöbənin hər bir işçisi hazırladığı, ekspertizadan keçirdiyi və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin normativ hüquqi aktlarına, nazirin və Xidmət rəisinin əmr və sərəncamlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdiri:

5.7.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.7.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.7.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Xidmətin rəhbərliyinə təqdim edir;

5.7.5. şöbə tərəfindən bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.7.6. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Xidmətin rəhbərliyinə təqdimatlar verir;

5.7.7. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Xidmətin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.7.8. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.7.9. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.7.10. şöbəni təmsil edir.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1. Torpaqların idarə edilməsi sektorunun aşağıdakı vəzifələri vardır:**

6.1.1. torpaqların dövlət idarəetməsinin təşkili istiqamətində həyata keçirilən işləri əlaqələndirmək və görülmüş işlər barədə məlumatların toplanılmasını və ümumiləşdirilməsini təmin etmək;

6.1.2. dövlət mülkiyyətində olan torpaq sahələrinin idarə edilməsi, özəlləşdirilməsi və bu sahəyə investisiyaların cəlb olunması sahəsində dövlət siyasətinin həyata keçirilməsinə dair təkliflər vermək;

6.1.3. torpaq idarəetməsini tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

6.1.4. torpaqların idarə edilməsinə nəzarət sahəsində dövlət proqramlarının layihələrinin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

6.1.5. torpaq sahələrinin normativ qiymətlərinin və dövlət torpaqlarının icarə haqlarının müəyyən edilməsi ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.6. torpaqların zonalaşdırılması barədə təkliflər vermək;

6.1.7. torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi barədə vəsatətlərə baxmaq,əsaslandırılması istiqamətində tədbirlər görmək və təkliflər vermək;

6.1.8. bələdiyyə mülkiyyətinə torpaq alınması barədə vəsatətlərə baxmaq, əsaslandırılması istiqamətində tədbirlər görmək və təkliflər vermək;

6.1.9. aşkar edilən istifadəsiz qalmış və səmərəsiz istifadə olunan torpaq sahələrindən səmərəli istifadə olunması məqsədilə təkliflər vermək;

6.1.10. torpaqların idarə edilməsi sahəsində dövlət proqramlarının layihələrinin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

6.1.11. torpaqların şorlaşma, şorakətləşmə və müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, torpaqların münbitliyinin qorunması layihələrinin aidiyyəti təşkilatlarla birlikdə tərtibində iştirak etmək;

6.1.12. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinə razılıq vermək;

6.1.13. dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsinə dair işlərin təşkilində iştirak etmək;

6.1.14. torpaqların dövlət idarəetməsinin təşkili ilə bağlı icra hakimiyyəti orqanlarının, dövlət müəssisə və təşkilatlarının fəaliyyətini əlaqələndirmək;

6.1.15. icarəyə və istifadəyə verilən dövlət müəssisə, idarə və təşkilatların istifadəsində olan, dövlət mülkiyyətində olan obyektlərin yerləşdiyi və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, habelə hüquqi və fiziki şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaqları istisna olmaqla, digər dövlət torpaqlarının icarəyə və istifadəyə verilməsinə dair rəy vermək;

6.1.16. torpaq ehtiyatlarından istifadə olunması ilə bağlı proqramlara, yerquruluşu layihələrinə, şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq ərazi və baş planlarına müvafiq rəy verilməsində iştirak etmək;

6.1.17. torpaqların idarə olunması işlərinin maliyyələşdirilməsinə dair təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.18. beynəlxalq əlaqələr və əməkdaşlığa dair sənədlərin layihələrini hazırlamaq, Azərbaycan Respublikasının mülkiyyət hüquqlarının qorunması məqsədi ilə Xidməti xarici ölkələrin müvafiq orqanlarında təmsil etmək;

6.1.19. müxtəlif məsələlər üzrə yaradılan komissiyaların və işçi qrupların işində iştirak etmək;

6.1.20. dövlət, məhkəmə, yerli özünüidarəetmə orqanları, müəssisə və təşkilatlar, beynəlxalq və qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər tərəfindən Xidmətə ünvanlanmış və icrası şöbəyə tapşırılmış müraciətlərə və sorğulara qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmasını və tədbirlərin görülməsini təmin etmək;

6.1.21. Xidmətin strukturlarına Xidmətin fəaliyyəti prosesində, habelə fəaliyyət istiqamətləri üzrə müvafiq yardım göstərmək, arayışlar, rəylər və qanunvericiliyin tələblərinə əməl olunması istiqamətində məsləhətlər vermək;

6.1.22. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.1.23. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.1.24. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.1.25. torpaqların səmərəli istifadəsi ilə bağlı layihə-axtarış və təcrübi-eksperimental işlərinin əlaqələndirilməsini təmin etmək;

6.1.26. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.2. Torpaq bazarının təşkili sektorunun aşağıdakı vəzifələri vardır:**

6.2.1. torpaq bazarını təşkil etmək, torpaq bazarını tənzimləyən rəsmi məlumatların müntəzəm toplanmasını təmin etmək;

6.2.2. bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq mülkiyyətə, istifadəyə, icarəyə verilməsinə dair rəy hazırlanmasını təşkil etmək;

6.2.3. torpaq sahələrinin icarəyə və xüsusi mülkiyyətə verilməsi, torpaq bazarının təşkili işlərinin aparılmasını tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

6.2.4. fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

6.2.5. xidməti zərurətlə əlaqədar Xidmətin strukturlarına, dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə müvafiq qaydada sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

6.2.6. dövlət, məhkəmə, yerli özünüidarəetmə orqanları, müəssisə və təşkilatlar, beynəlxalq və qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər tərəfindən Xidmətə ünvanlanmış və icrası şöbəyə tapşırılmış müraciətlərə və sorğulara qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmasını və qanunvericiliyə uyğun tədbirlərin görülməsini təmin etmək;

6.2.7. Xidmətin strukturları tərəfindən qanunvericilik aktlarının, təşkilati sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

6.2.8. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

6.2.9. Xidmətdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Xidməti təmsil etmək, onların işində iştirak etmək, müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

6.2.10. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.2.11. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.2.12. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.3. Torpaq münasibətləri, geodeziya və metodiki təminat sektorunun aşağıdakı vəzifələri vardır:**

6.3.1. torpaq münasibətlərinin tənzimlənməsi, yerquruluşu, dövlət torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin aparılmasının əlaqələndirilməsini təmin etmək və bu sahəyə nəzarət etmək;

6.3.2. dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə avtomatlaşdırılmış torpaq kadastr informasiya sistemi və məlumat bankının funksionallığının təmin edilməsi istiqamətində zəruri tədbirlər görmək;

6.3.3. yerquruluşu layihələrinin dövlət ekspertizasının həyata keçirilməsində iştirak etmək;

6.3.4. kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi, habelə torpağın normativ qiymətinin müəyyənləşdirilməsi, torpaqlardan səmərəli istifadə olunması və onların mühafizəsini təmin edən iqtisadi həvəsləndirmə tədbirlərinə dair təkliflər hazırlanmasında iştirak etmək;

6.3.5. yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin nəticəsində əldə olunan məlumatların və sənədlərin saxlanılması və istifadəsinin təmin olunması ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.6. xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin və onların nəticəsi olan materialların və məlumatların hazırlanmasının və istifadəsinin vahid rejim və normativ-texniki sənədlər əsasında həyata keçirilməsinə nəzarət edilməsində iştirak etmək;

6.3.7. torpaq münasibətlərinin tənzimlənməsi, yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin aparılmasını tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

6.3.8. yerquruluşu, torpaq kadastrı, torpaqların monitorinqi və xüsusi (sahəvi) təyinatlı geodeziya fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi zamanı aşkar edilən qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlər görmək;

6.3.9. yerquruluşu və torpaq kadastrı işlərinin aparılması üçün geodeziya istinad şəbəkəsinin yaradılması, kadastr plan və xəritələrinin tərtibatı, yenilənməsi və təminatı

işlərinin əlaqələndirilməsi barədə təkliflər vermək;

6.3.10. vahid koordinat və hündürlük sistemində obyekt və sənaye komplekslərinin, şəhər və başqa yaşayış məntəqələrinin ərazisinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçik miqyaslı topoqrafik xəritələrinin yenilənməsi və çoxməqsədli topoqrafik planalma işlərinin əlaqələndirilməsi barədə təkliflər vermək;

6.3.11. inzibati ərazi vahidlərinin və bələdiyyə xəritələrinin hazırlanmasına nəzarət etmək;

6.3.12. məkan məlumatları infrastrukturunun yaradılması məqsədi ilə həyata keçirilən yerquruluşu, kadastr və xüsusi (sahəvi) təyinatlı geodeziya işlərinin əlaqələndirilməsini təmin etmək;

6.3.13. müasir geodeziya alətlərinin və cihazlarının tətbiqi üçün şərait yaratmaq və tədbirlər görmək;

6.3.14. müəyyən edilmiş qaydada razılaşdırılmaqla aerofotoplanaalma işlərinin həyata keçirilməsində və digər təşkilatların həmin məlumatlarla müəyyən olunmuş qaydada təmin edilməsində iştirak etmək;

6.3.15. torpaq sahələrinin kəmiyyət və keyfiyyət göstəricilərinin dəqiqləşdirilməsi, torpaq sahələrində baş verən dəyişikliklərin müəyyən edilməsi istiqamətində həyata keçirilən işləri əlaqələndirmək;

6.3.16. rayonlar, rayon və respublika tabeli şəhərlər (o cümlədən Naxçıvan Muxtar Respublikası) üzrə torpaqların kəmiyyəti, keyfiyyəti və onlardan istifadə haqqında (hər il 1 yanvar tarixinə olan vəziyyətinə dair) hesabatların (torpaq fondunun növləri, torpaqda baş verən dəyişikliklər, habelə torpaqların mülkiyyətə, istifadəyə və icarəyə verilməsi haqqında məlumatlar daxil edilməklə) kağız və elektron daşıyıcılarda tətrib edilməsinə nəzarət etmək;

6.3.17. dövlət, məhkəmə, yerli özünüidarəetmə orqanları, müəssisə və təşkilatlar, beynəlxalq və qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər tərəfindən Xidmətə ünvanlanmış və icrası şöbəyə tapşırılmış müraciətlərə və sorğulara qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmasını və qanunvericiliyə uyğun tədbirlərin görülməsini təmin etmək;

6.3.18. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.3.19. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.3.20. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.3.21. torpaqların səmərəli istifadəsi ilə bağlı layihə-axtarış və təcrübi-eksperimental işlərinin əlaqələndirilməsini təmin etmək;

6.3.22. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.